

*Şuşa əsl Azərbaycan şəhəridir. Çünki burada Azərbaycan ruhu hiss olunur. Memarlıq abidələri, bulaqlar, – baxmayaraq ki, ermənilər o bulaqların naxışlarını dəyişmişdilər, yazıları da silmişdilər, – amma yenə də burada hər tərəf, necə deyərlər, Azərbaycan mədəniyyəti ilə qaynayır. Biz əbədi qayıtmışıq, burada əbədi yaşayacağıq. Demişəm ki, Şuşa dünyanın ən gözəl şəhərinə çevriləcək. Təkcə Şuşa yox, azad edilmiş bütün başqa şəhərlər.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

# “Şuşa ili”miz mübarək olsun!

***Dövlətimizin başçısı İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində bəyan edib ki, bu il biz Şuşa şəhərinin 270 illiyini qeyd edəcəyik. Bu şanlı tarix nəzərə alınaraq və Şuşanın bərpasının sürətləndirmək məqsədilə yeni il “Şuşa ili” elan olunub. Bu barədə ilk anonsu dövlətimizin başçısı hələ ötən ilin mayında Şuşada “Xarıbülbül” musiqi festivalının açılışında çıxışı zamanı vermişdi. İndi isə, budur, cənab İlham Əliyev yeni ilimizi Şuşanın adı ilə bağladı. Xeyirli, uğurlu olsun! Qeyrət qalamız Şuşa elə bir gözəl məkan, elə bir vacib geosiyasi və hərbi-strateji yerdir ki, hər zaman işğalçı, ilhaqçı və istilaçılar oraya göz dikiblər.***

Ulu öndər Heydər Əliyev 1996-cı il mayın 6-da Şuşa və Laçın rayonları sakinlərinin bir qrupu ilə görüşdə Qarabağın incisinə çox yüksək qiymət verib: “Şuşa həqiqətən bir şəhər kimi, eyni zamanda, vahid bir muzey – Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, elminin böyük bir hissəsini əks etdirən muzeydir. Şəhər özü həm quruluşu, həm də abidələri, yüksək memarlıq səviyyəsində olan binaları, Cıdır düzü ilə, təbii gözəlliyi ilə böyük bir muzeydir”.

Həmin görüşdə xatırladılıb ki, düz 45 il əvvəl – 1977-ci ildə ulu öndərin təşəbbüsü ilə “Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilmiş, bunun da sayəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi yönümündə önəmli addımlar atılmışdır. Amma, təəssüf ki, 1992-ci ildə Ermənistanın hərbi təcavüz nəticəsində Şuşa işğal edilmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasəti həyata keçirilmişdir.

Şuşa 28 il yarımlıq işğaldan sonra, nəhayət, azad olunub. Orada quruculuq işlərinin təşkilində çevikliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilib. Prezidentin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilib. Keçən il orada ənənəvi bayram tədbirləri yenidən keçirilməyə başlanıb. Azad Şuşa 2021-ci ilin mayında Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan olunub.

Ötən il ölkəmizdə “Nizami Gəncəvi” ili idi. Bu, özlüyündə qılıncla qələmin vəhdətindən doğan rəhbər müdrikliyini ehtiva edirdisə, yeni ilin “Şuşa ili” elan olunması əsl sərkərdə uzaqgörənliyidir. Prezidentimizin dünyaya ismarıcıdır ki, Azərbaycan xalqı Qarabağı qəhrəmalıq simvolu olan qılıncla qarı düşməndən təmizləyib, qələmin rəmzi olan Nizami ideyaları ilə ora qayıdıb və indi də “ağsaçlı” Şuşanı dirçəldir!

Keçən il yanvarın 14-də, Prezident İlham Əliyevin Şuşaya ilk səfərindən sonra şəhərin planlı bərpasına start verilib. İl ərzində orada böyük işlər görülüb. İlk növbədə “Zəfər yolu” çəkilib. Hazırda Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, məsafə daha qısa olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edilib, buraya yüksəkgərginlikli xətlər çəkilib, yarımstansiya tikilib. Düşmən Şuşanı tərk edərkən şəhərin su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsi bərpa olunub. İndi iki mənbədən Şuşaya su gəlir. Şuşanın tarixi abidələri bərpa edilib. Vaqifin məqbərəsi əzəmətlə ucalır. Şairin ermənilər tərəfindən dağıdılmış büstü bərpa edilib. Məscidlər əsaslı təmir olunur. Heydər Əliyev Fondu bu işləri öz üzərinə götürüb. Natəvan bulağı çağlayır. Nankorların şəhərdə qurutduğu digər 16 bulağın da suyu yenidən qaynayır. “Xarıbülbül” və “Qarabağ” otelləri istifadəyə verilib, yay aylarında artıq ilk qonaqlarını qəbul edib. Yeni beşulduzlu otel də tikilir. Bu tədbirlərin ən önəmlisi yeni yaşayış kompleksinin tikintisinə başlanılmasıdır.

Şuşalılar həm qrup-qrup öz doğma şəhərinə gəlib ziyarət edirlər, həm də artıq burada açılmış obyektlərdə işlə təmin edilirlər. Sentyabrda BBC News-un müxbiri yazmışdı: “Yuxarı Gövhər ağa məscidindən Üzeyir Hacıbəyli, Natavan və Bülbülün büstlərinin qoyulduğu parka gedən yolda ərzaq mağazası var. Yaşayış binalarının müxtəlif mərtəbələrindən mülki geyimli şəxslər görmək olur. Onlar bizi salamlayırlar, əl edirlər. Burada xidməti vəzifəsini yerinə yetirən bəzi şəxslər öz ailələrini də bura gətiriblər. Bu küçəni təzə bişmiş çörək qoxusu bürüyüb”. Böyük Qayıdışa lap az qalır.

“Şuşa ili” şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun inkişafına güclü təkan olacaq. Bu qərarla şəhərin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması sürətlənəcək, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği daha da genişlənəcək.

Prezident İlham Əliyev dəfələrlə çıxışlarında qeyd edib ki, ermənilər onilliklər boyunca Qarabağı öz əraziləri kimi qələmə veriblər. Əgər onların idisə, nəyə görə orada bir dənə də olsa, salamat bina qoymayıb, hamısını barbarcasına dağıdıblar? Ermənilərin Şuşanı özlərinin qədim vətəni kimi təqdim etmək səyləri dünya ictimaiyyətini çaşdırmaq qəsdindən başqa bir şey deyil. 1823-cü ilə aid statistik məlumatlara əsasən, həmin dövrdə Qarabağ xanlığında yaşayan 20035 ailədən 15729-nu azərbaycanlı, 4366-nı isə xristian (alban mənşəli) ailələr təşkil edirdi. İşğalçı çar Rusiyası Cənubi Qafqazda mövqelərini möhkəmləndirmək üçün ermənilərdən istifadə edərək məlum Kürəkçay, Türkmənçay, Ədirnə müqavilələrinin şərtlərinə əsasən, onların İrandan və Osmanlı Türkiyəsindən Qarabağ, İrəvan, Zəngəzur, və Göyçəyə köçürülməsini həyata keçirib. Ermənilərin riyakar iddiaları olsa-olsa tarix nağılbazlığıdır.

Bu nağıla ağlı başında olan ermənilər də inanmır və deyirlər ki, Qarabağ heç vaxt Ermənistanın olmayıb. Bir də ki, Ermənistan özü tarixi Azərbaycan torpaqlarında süni surətdə qondarıldığı halda, Qarabağ və ya hansısa digər ərazilər necə ermənilərin ola bilər?

İrəvanlı siyasi şərhçi Mkrtıç Arşakyan Qarabağın məhz kimə mənsub olduğunu dolayısı ilə belə təsdiqləyir: “Ermənistanın rəhbərləri Qarabağda gedən işlərə baxıb utanmalıdırlar. İndi orada tikib-qururlar, açılışlar edirlər. Qısa müddətdə çoxlu abadlıq işləri aparılıb. Bəs siz nə etdiniz? Otuz ildə evləri, idarə və müəssisə binalarını, xidmət obyektlərini söküb tikinti materiallarını satmaqla məşğul oldunuz. Mən hələ başqa məsələləri demirəm. Ayıb olsun!”

Qarabağın işğal altında olduğu dövrdə 7 il Şuşanın “meri” işləmiş Artsvik Sarkisyan isə yazır: “1992-ci ildə Şuşa şəhəri bizim nəzarətimiz altına keçəndən sonra ermənilər azərbaycanlıların evlərini dağıdaraq, yana biləcək hər şeyi sındıraraq, qışda qızınmaq üçün istifadə edirdilər. 7 il ərzində Şuşaya ayrılan heç bir investisiya bu şəhərə sərf olunmayıb. Ermənistan dövləti burada bircə tikinti də aparmayıb”.

Bütün vəhşiliklərə rəğmən, Şuşa özəlliyini hər zaman qoruyub saxlayan bir şəhərdir. Cənab İlham Əliyev bu barədə fikirlərini dəfələrlə ifadə edib: “İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik”.

Özü də Şuşa qırıcı təyyarələr, PUA və dronlar, tank-top mərmiləri ilə alınmadı. Qarabağın göz bəbəyi olan gözəl şəhərin olub-qalan tarixi binaları, abidələri ziyan çəkməsin deyə, xüsusi təyinatlı cəngavərlərimiz yağışın isladıb şüşə kimi sürüşkən elədiyi dimdik qayalarla kəndirlə dırmaşaraq, yıxıla-dura Şuşaya qalxdılar, şəhəri əlbəyaxa döyüşlərlə geri aldılar.

Şuşa bir çox tarixi şəxsiyyətlərin– Pənahəli xanın, Molla Pənah Vaqifin, Xurşidbanu Natəvanın, Qasım bəy Zakirin, Mir Mövsüm Nəvvabın, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Səməd bəy Mehmandarovun, Üzeyir bəy Hacıbəylinin, Cabbar Qaryağdıoğlunun, Xan Şuşinskinin, Bülbülün, Süleyman Ələsgərovun doğulduqları ünvandır. Ruhları şad olsun! Müqəddəs şəhər gəlmə hayların murdar nəfəsindən həmişəlik təmizlənib. Bu məram uğrunda qan tökülüb, şəhidlər verilib.

Xan Şuşinskinin sovet dövründə yazdığı "Şuşanın dağları" mahnısı necə də ecazkardır! “Şuşanın dağları başı dumanlı, Qırmızı qoftalı, yaşıl tumanlı”. Araşdırmaçılar bu sadə mətndə üçrəngli, aylı-ulduzlu bayrağımıza işarələrin olduğunu bildiriblər. Bu gün Şuşada dövlət bayrağımız bütün əzəməti ilə dalğalanır.

Unudulmaz şairimiz Tofiq Bayram bir vaxt “Lazım gəlsə, gözümün qarasını verərəm, Qarabağı verməcəm!” – demişdi. İşğaldan sonra mərhum dostum Akif Səməd “Şuşaya gedə bilmirəm” adlı təsirli bir şeir yazmışdı. Biz artıq Şuşaya gedə bilirik. Gedirik, gedəcəyik də! Bütün yollar Şuşaya aparır!

Yazıçılar Birliyinin sədri Anar Şuşada yenidən keçirilən Vaqif Poeziya Günlərinin açılış mərasimində deyib: "Mən ilk dəfə Şuşaya 1952-ci ildə gəlmişəm. O zaman mənim 14 yaşım var idi. Şəhərdə bircə abidə var idi - Sovet İttifaqı Qəhrəmanı Nelson Stepanyanın abidəsi. İndi bədnam adı tarixdə qalmış bu vilayətin erməni başçıları bu qədim Azərbaycan şəhərini erməni şəhərinə çevirmək istəyirdilər. Burada Azərbaycan abidələri yox idi. Qədimdən var idi, amma yenilər yox idi. Ulu öndərin vaxtında burada muzeylər açıldı - Üzeyir Hacıbəylinin, Bülbülün muzeyləri, Natəvanın, Üzeyir bəyin, Bülbülün heykəlləri qoyuldu... Biz buraya Zəfər yolu ilə gəldik. Bu yolun əvvəli var, amma sonu yoxdur. Bu yol uzandıqca uzanacaq. Bu Zəfər yolu Azərbaycanın hərbi gücünün yoludur, siyasi gücünün yoludur, iqtisadi gücünün yoludur və möhtəşəm Azərbaycan mədəniyyətinin, Azərbaycan ədəbiyyatının Zəfər yoludur!"

Qələmdaşlarımız azad Şuşadan şeirlər, oçerklər yazırlar. Emin Səfərov səfər təəssüratlarında obrazlı şəkildə qeyd edir ki, Şuşa şəhidlərin bizə əmanət qoyub getdiyi yerdir. “Bu şəhərə dəstəmaz alıb girmək lazımdır. Şuşada ağır ifadələr işlətmək olmaz, günahdır. Şuşa şəhid qanıdır, Şuşa şəhidin cibindən tapılan körpənin fotosudur... Siz müqəddəs şəhərə ayaq basar-basmaz mütləq bunu hiss edəcəksiniz”.

Bəli, Şuşanın bir özgə lətafəti var. Şuşaya gələnlər öncə bu şəhərə aşağıdan yuxarıya baxmalı olurlar. Şuşa 1000-2700 metr aralığında dəyişən dağlıq bir ərazidə, Kiçik Qafqazın Qarabağ silsiləsinin mərkəzi hissəsində yerləşir, sıldırım qayalarla dairəvi şəkildə əhatələnib. Şuşaya kənardan baxanlar əllərini papaqlarının üstünə qoymasalar, yerə düşər. Amma bu da dəqiq olan bir faktdır: ermənilərin papağı burada yerə elə düşüb və ayaqlar altında elə qalıb ki, bir də götürə bilməzlər. Çünki Şuşa bizim zəfər zirvəmizdir.

**“Şuşa ili”miz mübarək olun!**

***“Xalq qəzeti”***